*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 421-425*

https://doi.org/10.62837/2025.8.421

**SABİR MƏMMƏDOV**
ADPU-nun Ağcabədi filialı, dosent
vilayetmemmedov1980@mail.ru
**FAZİL CƏFƏROV**
ADPU-nun Ağcabədi filialı, dosent
faziljafarov@yahoo.com

# BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA VƏTƏNPƏRVƏRLİK

**Xülasə**

*Məqalə Bəxtiyar Vaharzadənin poeziyasında yer alan azadlıq, müstəqillik, vətənə sonsuz məhəbbət, Ana dilinə və xalqına xüsusi sevgi, turançılıq-türkçülük, Qarabağ dərdi, Xocalı soyqırımı, şəhidlər və sairə məsələlər ön planda canlandırılmışdır.*

*Məqalədə azadlıq və müstəqilliyin alovlu çarcısı, hər zaman xalqının dərdlərini düşünən, Qarabağ-Xocalı və şəhidlər faciəsini dünyaya bəyan edən, vətənpərvər şair Bəxtiyar Vahibzadə nin yaradıcılıq yoluna işıq salmışdır.*

**Açar sözlər:** *Müstəqillik, milli azadlıq, türkçülük, vətənpərvərlik, Qarabağ dərdi, şəhidlər, Xoçalı soyqırımı.*

**Giriş.**

Müasir poeziyamızın sayılıb-seçilən şairlərindən olan Bəxtiyar Vahabzadə öz zəngin, çox cəhətli ,bənzərsiz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında yeni üfüqlər açmış söz sərrafıdır . Özünəməxsus izi və yolu olan,təkrarsız ,dil və üslubu ilə seçilən novator şairlərimizdən biridir.

B. Vahabzadənin lirikasında vətənə,yurda bağlılıq hər öndə durur. Bu onun əsərlərinin əsas qayəsini təşkil edir. Şairi vətənin ağrı -acısı , dərdi və eləcə də həsrət və iztirabları düşündürür, bu baxımdan da əsərlərində bu məsələlər geniş sərgilənir. "Bəxtiyar Vahabzadənin lirikası"(1983) kitabının müəllifi İ.Əliyeva şairin vətənpərvərlik mövzusunda yazdığı əsərlərdən danışarkən demişdir:"Şairin elə bir əsəri yoxdur ki, orada Azərbaycan torpağının isti nəfəsi, təravəti duyulmasın , qəhrəman xaqlqımızın mübarizə əzmi, qurub yaratmaq eşqi , humanist hissləri, gələcəyə olan inamı yüksək poeziya dili ilə bədii şəkildə əks olunmasın".

Bu fikirlər B.Vahabzadənin necə bir vətənpərvər şair olduğunu bir daha təsdiq eləyir.

B.Vahabzadənin "Vətən" ,"Azərbaycan","Vətənin keşiyində", "Azərbaycan əsgəri" "Şəhid anası" və şeirlərinin vətənpərvərlik mövzusuna həsr edilmişdir.

Şair vətən sevgisin belə dilə gətirir:

Dönsün həqiqətə ehtimal,günan

Yer ilə səmanı qarışıq salan.
Zülmətə nur saçan xəyallarımdan
Vətən torpağına bir işıq salan.

B.Vahabzadə "Vətən olmaz" qəzəlində göstərir ki , hər bir insan üçün ən müqəddəs yer onun vətəni doğulub boya-başa çatdığı yurdudur.

Əcdadımızın türbəsi torpaq-kökümüzdür ,
Torpaqsız açan buğda dənindən də dən olmaz.
Kökdən aralandınsa işin düşdü qəzaya ,
İmdadına , fəryadına bir dən yetər olmaz.
Yurd eşqi bütün sevgilərin yacıdır əlbət,
Haqdan doğulan qibləyə heç vaxt çatan olmaz.

Şairin yaradıçılığında vətənpərvərlik ön planda durduğu üçün insanların bütün arzu və istəkləri ikinci planda verilmişdir. Bəxtiyar Vahibzadə milli azadlı və müstəqillik carçısı olmaqla bərabər həmişə millətini, xalqını onun övladlarının həyatını düşünmüş və özyurdseverliyini poeziyasının canına və qanına hopdurmuşdur. Şair poeziyası bəşər övladının şan-şərəfi, qeyrət və namusu olduğunu hər an öz yazılarında əks etdirir. Vətən borcu hər bir şəxsin şəxsi şərəfi mənəvi və müqəddəs borcu olduğunu Bəxtiyar Vahibzadə öz poeziyasında dönə-dönə xatırladır[1,2].

Bütöv halda Bəxtiyar Vahibzadə sənəti Azərbaycan xalqının mənəvi dünyasından, onun keçdiyi şanlı tarixdən bəhrələnmiş, qidalanmış, dərin müasir həqiqətlərlə ətə-qana dolmuş fəlsəfi siqləti, mərd və cəsarətli poeziyadır.Yüksək və böyük amallarla nəfəs almaq, dövrümüzü, cəmiyyətimizin, xalqımızın qarşısında duran, əzəmətli vəzifələri ehtiraslı, coşğun ağıl və fəlsəfi təfəkkürlə əks etdirmək onun poeziyasına güvvətli müasirlik və vətəndaşlıq pafosu aşılamışdır. Güclü poetik zəkaya və ilhama malik olan Bəxtiyar Vahibzadə xalq arasında dərin məhəbbət qazanmış şairlərimizdəndir.

**Təhlil və müzakirələr.**

Bəxtiyar Vahibzadəyə görə “dünyanın ən böyük dahiləri, ədəbiyyat və sənət xadimləri ən gözəl əsərlərini vətənə həsr etmişlər”. Vətən sevgisi hər bir vətən övladının canında və qanında olur. Onu heç bir zaman unutmaq olmaz. Bu baxımdan şairin “ Vətən dərdi”, Şəhid məzarları”, “Vətən eşqi hər şeydən əzizdir” və başqa şeirləri vətənpərvərlik hisslərini geniş şəkildə əks etdirilmişdir. Bunun bariz nümunəsini “Vətən” şerində görmək olar:

Çağırır indi bütün milləti imdada Vətən,
Dəyişilməz, ay oğul, cənnətə dünyada Vətən.
Bizə meydan oxuyan bilməlidir birdəfəlik,
Nə satılmaz, nə verilməz binədən yada Vətən.
Sinə altında gərək qəlb kimi hər an döyünə,
Yana ulduz kimi hər sözdə, hər imzada Vətən .

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 421-425*

Görkəmli şairi, vətənpərvər, azadlıq üçün canını fəda edən X.R.Ulutürkün Qarabağ torpağı uğurunda şəhid olmuş oğlu Təbrizin əziz xatirəsinə ithaf etdiyi "Vətən məcnunluğu" şerində Bəxtiyar Vahibzadə yurd, vətənə məhəbbətini xüsusi sevgi ilə tərənnüm etdirmişdir:

Vətənin yolunda kimi qan ağlar,
Kimi də can verər....
Sənsə sən oldun.
Vətənçün pulundan keçməyənlər var,
Doğmaca balandan keçən sən oldun

Bəxtiyar Vahibzadə vətəni, millətin dili, varlığı, canı və demək olar ki, hər şeyi sanır. Ona görə də "Vətən eşqi hər şeydən əzizdir" şerində bu fikirlərini bədi boyalarla təsdiqləyərək deyir:

Vətən eşqi hər eşqdən əzəldir,
Mənim elim, mənim dilim gözəldir.
Öz canımdır, öz anamdır Vətənim,
Azərbaycan, mən səninəm, sən mənim .

Şair "Ana vətən" kəlməsini heş vaxt biri-birindən ayırmır. Ona görədə Ana ilə vətən sözləri birgə deyilməlidir. Hələ vaxtı ilə sevimli şairimiz Abbas Səhhət demişdir ki, "Vətəni sevməyən insan olmaz, olsa da o şəxs də vicdan olmaz". Doğrudanda belədir. Vətən, yurd, el-oba sevgisi həmişə şairlərin yaradıcılığında ön planda durmuşdur. Sevimli şairəmiz Ağabəyim Ağa Qarabağdan-vətənindən ayrı düşəndə ah-nalə çəkərək demişdir[1,5].:

Əziziyəm Qarabağ,
Şəki, Şirvan Qarabağ,
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ

Vətən həsrəti, vətən dərdi şairəni odsuz-oçaqsız yandıraraq külə döndərmişdir[3,4]. Bu bütün vətən həsrəti çəkən şairlərimizə, o cümlədən Bəxtiyar Vahibzadəyə də aidir.

Bəxtiyar Vahibzadə "Azərbaycan" şerində də vətənə məhəbbət duyğuları özünü geniş şəkildə göstərir. Şair Azərbaycanı sonsuz məhəbbətlə sevdiyini bəyan edərək söyləyir:

Ey qüdrətim, ey şöhrətim,
Sənsiz mənim nə qiymətim?
Torpağından qüvvət alıb yarandım mən.
Xəyalımın əvvəli sən,

B.Vahabzadənin poeziyası vətənpərvərlik və vətəndaşlıq nöqtey nəzərindən çox zəngindir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 421-425*

Qarabağ dərdi şairi hər an düşündürmüş, erməni faşistlərinə lənətlər yağdırmışdır. Bəxtiyar Vahibzadə Qarabağda şəhid olan şəhidlərimizin ruhunu yad etmiş və onların əziz xatirəsinə "Şəhidlər" əsərini və eləcə də Xocalaı soyqırımını xalqımızın tarixində qanlı bir səhifə kimi göstərmiş və sanki fəryad çəkmişdir[7,8].

Vaxtı ilə Bəxtiyar Vahibzadənin yaradıcılığından xalq şairi Süleyman Rüstəm demişdir: "B.Vahabzadənin yaradıcılığında mənim xoşuma gələn nədir? Bu suala belə cavab verərdim: ilk növbədə vətəndaşlıq, azərbaycançılıq, sonra da cəsarət, dərinlik. Onun respublikamızdan kənarda çap olunmuş şeirlərində imzasının yanında "Azərbaycan" sözünü yazmamaq da olar. Sanki onun bütün yaradıcılığına "Azərbaycan" möhürü vurulmuşdur" Doğrudan da şairin hər bir misrasında

Azərbaycançılıq ruhu duyulur.

Ümumiyyətlə, Bəxtiyar Vahibzadə yaradıcılığında Vətən-Qarabağ mövzusu qırmızı xətt kimi keçir.

**Nəticə.**

Şair bütün varlığı ilə xalqının bütün dərdlərini sonsuz sevgi ilə poetik şəkildə qələmə almışdır. "Bəxtiyar Vahabzadənin yaradiciliğinda vətənpərvərlik ideyalarinin tərənnümü " mövzusunda nəticə üçün onu qeyd etmək lazımdır ki, milli azadlıq, müstəqillik, vətənpərvərlik, Qarabağ-Xocalı, şəhidlər, ana dilimiz, türkçülük, vətənin bütün ağrı-acıları B.Vahibzadə yaradıcılığının əsas qanını və canını təşkil edir.

## Ədəbiyyat:

1. Telmanqızı Asifə. B.Vahabzadənin yaradıcılığı. Bakı: Turan evi, 2010, 152 s.
2. Vahabzadə Bəxtiyar. Əsərləri. 12 cilddə, II cild, Bakı: Elm, 2008, 616 s.
3. Vahabzadə Bəxtiyar. Əsərləri. 12 cilddə, VI cild, Bakı: Elm, 2008, 738 s.
4. Süleyman Rüstəm. Azərbaycanın xalq şairi, "Bakı" qəzeti, 15 avqust 1985
5. Vahabzadə Bəxtiyar. Yeni şeirlər. Bakı: Yazıçı, 1993
6. Əliyev İfrat. Bəxtiyar Vahabzadənin lirikası , Bakı ,"Yazıçı" nəşriyyatı ,1993,1805.
7. Əkbərzadə Şahmar. "Sən Bəxtiyar oldun o zamandan ki..." " Azərbaycan gəncləri" qəzeti , 1 noyabr 1984.
8. Cəfərov Nizami . Bəxtiyar Vahabzadə, Bakı, "Azərbaycan " nəşriyyatı ,1996, 96 səh.

**Sabir Mamedov, Fazil Jafarov**

## PATRIOTISM IN THE POETRY OF BAHKTIAR VAHABZADE

## Abstract

The article brings to the forefront the issues of freedom, independence, endless love for the homeland, special love for the mother tongue and people, Turanism-

Turkism, the Karabakh problem, the Khojaly genocide, martyrs and other issues in the poetry of Bakhtiyar Vahibzade.

The article sheds light on the creative path of the patriotic poet Bakhtiyar Vahibzade, who was a fiery champion of freedom and independence, who always thought about the problems of his people, who declared the Karabakh-Khojaly and martyrs' tragedy to the world.

***Keywords:*** *Independence, national freedom, Turkism, patriotism, Karabakh conflict, martyrs, Khochali genocide.*

**Сабир Мамедов, Фазиль Джафаров**

**ПАТРИОТИЗМ В ПОЭЗИИ БАХТИЯРА ВАГАБЗАДЕ**

**Резюме:**

В статье на первый план в поэзии Бахтияра Вахибзаде выдвигаются вопросы свободы, независимости, бесконечной любви к Родине, особой любви к родному языку и народу, туранизма-тюркизма, карабахской проблемы, Ходжалинского геноцида, шехидов и другие.

В статье освещается творческий путь патриотического поэта Бахтияра Вахибзаде, пламенного борца за свободу и независимость, всегда заботившегося о проблемах своего народа, возвестившего миру о Карабахско-Ходжалинской трагедии и трагедии шехидов.

***Ключевые слова:*** *Независимость, национальная свобода, тюркизм, патриотизм, карабахский конфликт, шехиды, Ходжалинский геноцид.*

***Rəyçi: fil.ü.f.d., dos Vaqif Salehoğlu Allahverdiyev***